

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 213 (21.623)

11 noyabr 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik




## Dünya azərbaycanlılarının həmrəyliyi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır

### 2001-ci il noyabrın 9-10-da Dünya Azərbaycanlılarının Birinci Qurultayı keçirilmişdir

***Bu gün Azərbaycanı özünə tarixi Vətən bilən hər bir şəxsin vahid amal və ideologiya ətrafında birləşməsi, həmrəylik nümayiş etdirməsi dövrün tələbi, zamanın çağırışıdır. Bunun üçün isə, ilk növbədə, dünyanın müxtəlif ölkələrində, tarixi Vətəndən uzaqda yaşayan azərbaycanlılar arasında həmrəyliyin, strateji məqsəd birliyinin yaradılması və möhkəmləndirilməsi son dərəcə zəruridir. Məhz buna görə də dahi şəxsiyyət, ulu öndərimiz Heydər Əliyev bütün fəaliyyəti dövründə digər sahələrlə yanaşı, dünyanın müxtəlif ölkələrindəki soydaşlarımızla əlaqələrin qurulmasına, onların milli həmrəyliyinin təmin olunması məsələsinə də diqqət yetirmiş, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirmişdir. 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə ümummilli liderimizin səyi nəticəsində istər Azərbaycanda, istərsə də ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızın vahid ideologiya və milli-mənəvi dəyərlər ətrafında birləşdirilməsinə nail olunmuş, dünya azərbaycanlılarının malik olduqları potensialın ümummilli problemlərin həllinə yönəldilməsi təmin edilmişdir.***

Dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesini ulu öndər hələ 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının rəhbəri işləyərkən diqqət mərkəzində saxlamışdır. Ümummilli liderimizin rəhbərliyi ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərar qəbul edilmişdir. Qərara əsasən, 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd olunmuşdur. Bayramın bütün dünya azərbaycanlıları tərəfindən birlik, həmrəylik günü kimi hər il böyük təntənə və qürur hissi ilə qeyd edildiyini bildirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün ulu öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda onun təşəbbüsü ilə 31 dekabr "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" kimi elan edilmişdir".***

Dünya azərbaycanlılarının konkret milli ideya ətrafında sıx birləşdirilməsi ideyasını irəli sürən ulu öndər Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəldiyi 1993-cü il iyunun 15-dən etibarən xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması məsələsini daim diqqət mərkəzində saxlamış, onların tarixi Vətənlə əlaqələrinin genişlənməsinə çalışmışdır. Ümummilli lider dünya azərbaycanlılarının qarşısında duran vəzifələri dəqiq və aydın müəyyənləşdirmişdir: onlar, ilk növbədə, öz milli kimliklərini dərk və hifz etməli, Azərbaycanın dilini, mədəniyyətini, mütərəqqi adət-ənənələrini, tarixini yaşatmalı, inkişaf etdirməlidirlər. Dünyada yaşayan soydaşlarımız, eyni zamanda, ana Vətənlə əlaqələrini möhkəmləndirməli, Azərbaycan dövlətinin, cəmiyyətinin problemləri ilə yaşamalı, onların həlli üçün mənəvi məsuliyyət daşımalı, Azərbaycanın ən böyük problemi olan Ermənistanın təcavüzü məsələsinin dünyada ədalətli mövqedən, obyektiv təbliği istiqamətində ardıcıl işlər görməlidirlər. Azərbaycan hökuməti də Vətənimizin get-gedə artan maddi və mənəvi potensialından, siyasi nüfuzundan bütün dünya azərbaycanlılarının bəhrələnməsinə şərait yaratmalı, onların milli və vətəndaş hüquqlarının qorunması üçün istifadə etməlidir.

Bu vəzifələrin uğurla icrasını təmin etmək, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların arasında birliyin və həmrəyliyin təmin olunması ilə bağlı məsələlərin birgə müzakirəsi məqsədilə 2001-ci il noyabrın 9-10-da Bakıda tarixi bir toplantı – Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmişdir. Qurultayda 36 xarici ölkədə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatdan 403 nümayəndə və 63 qonaq iştirak etmişdir. Qurultaydakı nitqində dahi rəhbərimizin söylədiyi ***"Fəxr edirəm ki, mən azərbaycanlıyam!"*** sözləri sayı 50 milyonu ötmüş dünya azərbaycanlıları üçün milli qürur simvoluna çevrilmişdir. O, dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi və qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsinin vacibliyini vurğulayaraq demişdir: ***"Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Xaricdə yaşayan azərbaycanlılar isə gərək indi müstəqil Azərbaycan ilə daha sıx əlaqələr qursunlar. Bunlar dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtdir".***

Ulu öndərin dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin təmin edilməsi ilə bağlı ideyaları bu gün də aktuallığını qoruyur, bu siyasət dahi şəxsiyyətin layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ardıcıl və qətiyyətli addımlar atılır. Dövlət başçısının 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən, həmin il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə vermişdir. Həmin qurultayda Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin ideyalarını daha da inkişaf etdirərək təkcə dünya azərbaycanlılarının birləşdirilməsi ilə kifayətlənməməyi, Azərbaycan və türk diasporlarının birləşərək amansız və məkrli düşmənə qarşı vahid cəbhədə mübarizə aparmasını tövsiyə etmişdir.

Dövlət başçısının müvafiq Sərəncamına uyğun olaraq, 2011-ci il iyulun 5-də Bakı şəhərində Dünya Azərbaycanlılarının III Qurultayı keçirilmiş, nüfuzlu tədbirdə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri, xarici ölkələrdə yaşayan azərbaycanlı elm, ictimai və mədəniyyət xadimləri, iş adamları iştirak etmişlər. III Qurultay bir daha göstərmişdir ki, Azərbaycanın inamla irəliləyərək iqtisadi artım tempinə görə dünyanın lider dövlətinə çevrilməsi, Cənubi Qafqazda əsas söz və nüfuz sahibi kimi çıxış etməsi dünyanın müxtəlif ölkələrinə səpələnmiş həmvətənlərimizi daha da ruhlandırmış, onların müstəqil dövlətin xoşbəxt sabahına inamını artırmışdır.

Bu il iyunun 3-də Bakıda, Heydər Əliyev Mərkəzində öz işinə başlayan Dünya Azərbaycanlılarının IV Qurultayında bu istiqamətdə görülmüş işlər, qəbul edilmiş qərarlar, tədbirlər geniş müzakirə olunmuşdur. İki gün davam edən tədbirdə 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonaq iştirak etmişdir. Qonaqların arasında Azərbaycana dost münasibəti ilə tanınan nüfuzlu siyasətçilər, ictimai xadimlər, elm adamları və bir neçə ölkənin yüksək vəzifəli şəxsləri, parlament üzvləri də var idi. Xaricdən dəvət edilən qonaqlarla yanaşı, qurultayın işinə Azərbaycanın müxtəlif dövlət və hökumət strukturlarının, qeyri-hökumət təşkilatlarının, elm, təhsil, mədəniyyət və digər yaradıcı qurumların, siyasi partiyaların təmsilçilərindən ibarət 360 nəfərlik nümayəndə heyəti də qatılmışdı.

Xaricdəki soydaşlarımızın yaşadıqları ölkənin ictimai-siyasi proseslərində fəallıq göstərməsi respublikamız üçün önəm kəsb edir. Çünki bununla onlar həmin ölkələrdə nüfuz qazanmış, mövqelərini möhkəmləndirmiş olurlar. Diasporumuzun ictimai-siyasi proseslərə təsir etmək imkanına malik amilə çevrilməsi üçün görüləcək işlər hələ çoxdur. Ulu öndər Heydər Əliyev Dünya Azərbaycanlılarının I Qurultayındakı çıxışında tövsiyə etdiyi kimi: ***"Azərbaycanlılar gərək yaşadıqları ölkədə o şəraiti mənimsəyərək, orada özləri üçün yaxşı mövqe tutsunlar. Ancaq öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır, Azərbaycançılıqdır".***

"Şərq qapısı"

## Dövlət Bayrağı Günü qeyd olunub

***Naxçıvan Dövlət Universitetində Dövlət Bayrağı Günü münasibətilə tədbir keçirilib. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbiri giriş sözü ilə açaraq Azərbaycan Respublikasının Dövlət Bayrağının müstəqillik rəmzi, milli qürur və şərəf mənbəyi olduğunu bildirib, kollektivi bayram münasibətilə təbrik edib.***

Universitetin Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Xəzər Hüseynov "Müstəqilliyimiz və milli mənsubiyyətimizin müqəddəs rəmzi olan bayrağımız" adlı məruzə ilə çıxış edib. Qeyd olunub ki, bu gün paytaxt Bakının ən görkəmli yerində dünyanın ən böyük bayrağı – dövlətimizin müstəqilliyinin, suverenliyinin rəmzi olan Azərbaycan bayrağı dalğalanır. Bu bayraq xalqımızın iftixar və qürur mənbəyi kimi hər bir azərbaycanlı üçün müqəddəsdir.

Vurğulanıb ki, Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Bayrağı 1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Ali Məclisinin sessiyasında yenidən Dövlət Bayrağı kimi təsdiq edilib. Elə həmin sessiyada ovaxtkı Azərbaycan Ali Soveti qarşısında bu bayrağın Azərbaycanın Dövlət Bayrağı kimi qəbul edilməsi ilə bağlı vəsatət qaldırılması qərara alınıb. Üçrəngli bayrağımız 1991-ci ildə müstəqil Azərbaycan Respublikasının rəsmi atributu elan olunub.

Xəzər Hüseynov ölkəmizin çoxəsrlik dövlətçilik tarixi, Azərbaycan Respublikasının Dövlət Bayrağı ilə bağlı qəbul edilən sərəncamlar, Bakıda, Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması barədə də danışıb. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında" 17 noyabr 2014-cü il tarixli Sərəncamına əsasən, hər il noyabr ayının 17-nin "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü" kimi qeyd olunması bu günün dövlətçilik tariximizdəki əhəmiyyətini bir daha təsdiqləyir.

Tədbir Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Gülxarə Əhmədovanın rəhbərliyi ilə universitetin Tələbə Teatr Studiyasının hazırladığı ədəbi-bədii kompozisiya ilə yekunlaşıb.

Mehriban SULTAN

***"Naxçıvan" Universitetində də 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə tədbir keçirilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra üçrəngli bayrağımız səhnəyə gətirilib.***

Tədbirin aparıcıları bildiriblər ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət Bayrağı milli suverenliyin simvolu kimi bütün vətəndaşlar üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir.

Vurğulanıb ki, Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Ali Məclisinin sessiyasında qaldırılıb. Həmin sessiyada Azərbaycan dövlətçiliyinin bərpası prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlər müzakirə olunub, "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "Naxçıvan Muxtar Respublikası ali dövlət hakimiyyəti orqanı haqqında" tarixi qərarlar qəbul edilib. "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" Qərara əsasən, müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunub, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın dövlət rəmzi kimi tanınması barədə vəsatət qaldırıb.

Çıxışlarda diqqətə çatdırılıb ki, bayrağımıza göstərilən daha bir qayğının ifadəsi olaraq 2010-cu il sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Dövlət Bayrağı Meydanının – Bakı şəhərinin Bayıl sahəsində yerləşən memorial abidə-istirahət parkının təntənəli açılışı olub. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da dövlət atributlarına hörmət və ehtiram yüksək səviyyədədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən, Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi yaradılıb.

Tədbirin bədii hissəsində tələbələrin ifasında rəngarəng musiqi nömrələri, Vətənimizə həsr olunmuş şeirlər səsləndirilib.

Nuray ƏSGƏROVA

## Xoşbəxt o adamdır ki, səhər işə, axşam evə tələsir

### *Bu mənada, muxtar respublika sakinlərinin bəxti gətirib*



***…Artıq imperiyanın çürümüş sütunları silkələnirdi, yetmiş il bir yerdə yaşamağa məhkum edilmiş "qardaşlaşan" respublikalar arasında iqtisadi əlaqələr kəsilirdi. Moskva, əslində, bütün müttəfiqlərdən əlini üzmüşdü. Azərbaycanda isə vəziyyət daha acınacaqlı idi. Bir tərəfdən mərkəzə arxalanan Ermənistanın əsassız torpaq iddiaları, digər tərəfdən kürsü üstündə bir-biri ilə didişən, Krılovun təmsilində deyildiyi kimi, biri suya, biri havaya, biri quruya çəkən ovaxtkı başıboş "başçıların" ucbatından xalq başının üstünü almış qara buludların qaranlığında ən çətin günlərini yaşayırdı.***

Şərur rayonunun mərkəzindəki çörəkbişirmə sexinin qabağında beş-altı lavaş almaq üçün saatlarla, bəzən günlərlə növbəyə dururduq.

Torpaq sahibsiz-yiyəsiz qalmışdı – nə əkən var idi, nə biçən. İdarə və müəssisələr iflic vəziyyətinə düşmüşdü. Bədbinliyə qapılmış kütlə əlini ağdan-qaraya vurmurdu.

İşıq yox, qaz yox, yollar bağlanmış, hər yerlə əlaqə kəsilmişdi. Belə vəziyyətdə camaat çıxış yolunu qışda evləri qızdırmaq üçün üzüm və meyvə bağlarını, həyətlərdəki köklü cəviz, alma, armud, tut ağaclarını kəsib yandırmaqda görürdü.

Günəşli səhərlərə gedən yol qaranlıq gecələrdən keçir və Günəşin şəfəqləri o qaranlıqları bir anda yox edir. Nəhayət, belə Günəş 1990-cı il iyul ayının 22-də Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın səmasında parladı. Bu, Heydər Əliyev Günəşi idi.

Ulu öndər siyasi təcrübəsindən, dünya böyüklükdə olan nüfuzundan istifadə edib qısa vaxt ərzində muxtar respublikada ərzaq və enerji böhranının aradan qaldırılması üçün əsaslı tədbirlər həyata keçirdi. Onun təşəbbüsü ilə keçmiş ittifaq respublikaları arasında ilk dəfə olaraq Naxçıvanda islahatlara başlandı. Bununla da dağıdıcılıq prosesinə son qoyuldu, kütlənin itirilmiş inamı özünə qayıtdı.

Muxtar respublikamıza səfərlərinin birində ümummilli liderimiz həmin illərdəki vəziyyəti belə xatırladırdı: ***"Naxçıvanda qışda şaxta 40 dərəcəyə qalxırdı. Ağır illər, çətin dövr idi. Su, elektrik enerjisi çatışmırdı, qaz, istilik yox idi, ərzaq sarıdan çətinlik çəkirdik. Xatirinizdədir, mən sizə dəfələrlə dedim, bərabər yaşayacağıq, əgər ac qalsaq da, hamımız bir yerdə ac qalacağıq. Ancaq nə qədər çətin olsa da, donmadıq, ac da qalmadıq… Gecə saat 2-3-ə qədər iş otağımda az işıq verən neft lampası ilə oturub işləyirdim, bunu hamı bilirdi. Evlərə elektrik, istilik vermək üçün heç bir imkan yox idi… Amma naxçıvanlıların dözümlülüyü hamımızı bu vəziyyətdən çıxardı".***

1995-1996-cı illərdən daha sürətlə tərəqqi və inkişaf yoluna çıxan muxtar respublikamızın bütün bölgələrində bu gün həyat normal axarı ilə davam edir, sənaye və kənd təsərrüfatı məhsulları istehsalı, tikinti-quruculuq, abadlıq, yaşıllaşdırma tədbirləri ildən-ilə yüksək artımla müşahidə olunur.

Muxtar respublikamızın hər yerində aparılan genişmiqyaslı tikinti-quruculuq, abadlıq tədbirləri şəhər və kəndlərimizin görkəmini əsaslı şəkildə dəyişir, yeni istehsal və emal müəssisələri işə salınır. Bu isə, sözün həqiqi mənasında, yeni Naxçıvanın qurulmasına gətirib çıxarıb.

Bu inkişafdan Şərur rayonuna da xeyli pay düşüb. Rayon mərkəzi və 45-ə qədər kənd yeni görkəm alıb, məktəblər, səhiyyə və mədəniyyət müəssisələri tikilib, yol, rabitə, elektrik və qaz infrastrukturları yenilənib, suvarma qurğuları istismara verilib. İstifadəyə verilən bütün sosial-inzibati obyektlər qazla işləyən fərdi qazanxanalarla təmin olunur. Bu da qış aylarında məktəblərdə dərslərin fasiləsiz keçilməsinə, digər müəssisələrdə işin normal təşkilinə imkan verir.

Azərbaycan Respublikası Prezidentinin və muxtar respublika Ali Məclisi Sədrinin aqrar sahənin inkişaf etdirilməsi, kənd təsərrüfatı məhsulları istehsalının artırılması ilə bağlı imzaladığı sərəncamlar bu bölmənin inkişafına marağı xeyli artırıb. Torpaq mülkiyyətçiləri dövlətin dəstəyi ilə güzəştli şərtlərlə kreditlər, pulsuz gübrə, motor yağlarının dəyərinin bir hissəsini alır, taxılçılara hər hektar əkin sahəsi üçün yardım olunur, hər il meliorasiya və irriqasiya tədbirlərinə xeyli vəsait xərclənir.

1969-cu ildə inşasına başlanan, səkkiz il sonra – 1977-ci ildən istismar olunan Arpaçay Su Anbarı ümummilli liderimiz Heydər Əliyevin yadigarıdır. 40 ilə yaxındır ki, bərəkətli Şərur, Sədərək, Kəngərli düzlərinə yeni həyat bəxş edən bu dəryaça kənd təsərrüfatının inkişafında mühüm rol oynamaqla yanaşı, daha öz məcrasından da çıxa bilmir. 2008-ci ildə su qovşağında aparılan təmir-bərpa işlərindən sonra gölün tutumu maksimum səviyyəyə çatıb və beləliklə, qızmar yay günlərində əkinlərin suvarılması sahəsində yaranan problemlərə tamamilə son qoyulub. Araz çayı boyu sahilbərkitmə işləri sürətlə davam etdirilir ki, bu da həmin ərazilərdə torpaqların yuyulmasının və şoranlaşmanın qarşısını alır. Bütün bunların nəticəsidir ki, rayonda kənd təsərrüfatı yüksək sürətlə inkişaf etdirilir. Müqayisə üçün deyək ki, bitkiçilik, heyvandarlıq və quşçuluq məhsulları istehsalı 1995-ci ilin rəqəmlərini 15-20 dəfə üstələyir.

Bu gün artıq çörəyimiz də boldur, ətimiz, yağımız, meyvəmiz, tərəvəzimiz də. Xüsusilə daha çox istifadə edilən taxıl və kartof, ət və süd məhsulları ildən-ilə artır, bu hesaba da öz istehsalımız özümüzü tam təmin edir. Rayonun müxtəlif ünvanlarında mövcud olan 10 soyuducu anbar 2 min tondan artıq meyvə-tərəvəz saxlamaq gücünə malikdir. Bu da əhalinin qış aylarında yerli məhsullarla təmin olunmasına şərait yaradıb.

Aparılan tikinti-quruculuq işləri, sənaye və istehsal müəssisələrinin genişləndirilməsi, torpağa marağın artması əhalinin məşğulluğunun təmin olunmasına da geniş imkanlar açıb. Nə vaxtsa bir tikə çörək dalınca mal-qarasını dəyər-dəyməzinə satıb, torpağını boş, ev-eşiyini, həyət-bacasını sahibsiz-yiyəsiz qoyub ora-bura qaçanlar bu şəraiti görüb doğma yerlərinə qayıdır, torpaqdan ikiəlli yapışırlar. Artıq hər kəs yaxşı bilir ki, ən dadlı çörək halal zəhmətlə qazanılan, öz elində-obasında hasilə gətirilən.

Bütün bunlar ulu öndər Heydər Əliyev siyasətinə sadiqliyin, bu siyasətin müstəqil Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvanda ardıcıllıqla və uğurla davam etdirilməsinin nəticəsidir.

Bu gün böyük qürur hissi keçiririk ki, ulu öndərin Naxçıvanın dünəni, bu günü və daha xoşbəxt gələcəyi naminə müəyyənləşdirdiyi strategiya muxtar respublikamızda uğurla həyata keçirilir. Son 20 ildə aparılan ardıcıl və uğurlu siyasət nəticəsində muxtar respublikanın sosial-iqtisadi sahədə qazandığı uğurlar artıq xarici bazarlardan asılılığı minimuma endirib. İşsizliyin aradan qaldırılması, məşğulluğun təmin olunması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər nəticəsində hər il minlərlə yeni iş yerləri yaradılır. Yaşayış məntəqələrinə fasiləsiz elektrik enerjisi və qaz verilir. Yol-nəqliyyat kompleksi təzələnir, ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbat tamamilə yerli istehsal hesabına təmin edilir, ümumtəhsil məktəblərinin şəbəkəsi yeni istifadəyə verilən obyektlər hesabına ildən-ilə genişlənir. Sevindirici nəticələrdən biri də budur ki, əhalinin artımında və məskunlaşmasında hər il yüksək rəqəmlər qeydə alınır. Bütün bunlar muxtar respublika sakinlərinin maddi rifah halının, dolanışıq səviyyəsinin yüksəldilməsinə, doğma el-obaya bağlılığına müsbət təsir edən amillərdəndir.

Ümumiyyətlə, bugünkü Naxçıvan sosial-iqtisadi göstəriciləri, aparılan genişmiqyaslı quruculuq və abadlıq tədbirləri ilə nəinki Azərbaycanın digər regionlarına, hətta dünyanın bir çox ölkələrinə nümunə göstəriləcək səviyyədədir. Bunu muxtar respublikamızda təşkil olunan beynəlxalq tədbirlərin iştirakçıları, xarici ölkələrdən Naxçıvana gələn turistlər də etiraf edirlər. Müstəqilliyin ilk illərində çörəyi də, digər zəruri ərzaq və gündəlik tələbat mallarını da qonşu ölkələrdən almaq məcburiyyətində qalan Naxçıvan artıq bu məhsulları, hətta inşaat materiallarını, elektrik enerjisini də xaricə ixrac etmək imkanına malikdir. Bu, ümummilli liderin siyasətinə sadiqliyin, Vətənə, doğma torpağa, xalqa olan bağlılığın və sevginin bariz ifadəsidir. Müstəqil ölkəmizin, onun tərkib hissəsi olan doğma Naxçıvanımızın daha parlaq gələcəyi hələ irəlidədir. Bu gələcəyin təməlində isə Heydər Əliyev siyasəti, Heydər Əliyev uzaqgörənliyi dayanır.

…Deyirlər, xoşbəxt o adamdır ki, səhər işə, axşam evə tələsir. Bu mənada, muxtar respublika sakinlərinin bəxti gətirib. Çünki hər gün səhər həvəslə məktəbə, iş yerinə yollanır, bilirlər ki, dərs keçmək, işləmək üçün normal şərait yaradılıb. Dükan-bazarlarımız öz istehsalımız olan yerli məhsullarla doludur. Çörək, ət, yağ, meyvə, tərəvəz istənilən qədərdir, mənzillərimiz fasiləsiz elektrik enerjisi, mavi yanacaqla təmin olunur. Ona görə ailədən, uşaqdan da tam arxayınçılıqdır. Hər bir naxçıvanlı isə yaradılan bu şəraitdə həmişə əl-ələ verib Azərbaycanın qədim diyarının daha da çiçəklənməsinə, inkişafına töhfəsini verir.

**Elman MƏMMƏDOV**

## Vətəndaşlara sığorta ödənişləri verilib

***Daşınmaz əmlakın icbari sığortası təbii fəlakətlər və gözlənilməz hadisələr nəticəsində vətəndaşların evlərinə və fərdi mənzillərinə dəymiş zərərlərin əvəzinin ödənilməsi zamanı mühüm vasitədir.***

"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, müxtəlif sığorta hadisələri baş verdikdə sığortalanmış daşınmaz əmlak sahiblərinə dəymiş zərərlər sığorta orqanları tərəfindən qiymətləndirilərək əmlak sahibinə ödənilir.

Bildiyimiz kimi, son dövrlərdə baş vermiş güclü külək, tufan və yağışlar vətəndaşların daşınmaz əmlakına müəyyən zərərlər vurub. Nəticədə, vətəndaşlara məxsus evlərin və digər yaşayış sahələrinin dam örtüyü yerindən qopub, onlara ciddi ziyan dəyib. Vətəndaşlar tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta agentliklərinə daxil olmuş müraciətlərə əsasən təbii fəlakət nəticəsində zərərçəkmiş sığortalı daşınmaz əmlaklara baxış keçirilib və dəymiş zərərlər qiymətləndirilərək əmlak sahiblərinə ödənilib. Belə ki, son dövrdə baş vermiş güclü külək nəticəsində Babək rayonu üzrə 53, Culfa rayonu üzrə 7, Ordubad rayonu üzrə 25, Şahbuz rayonu üzrə 13 nəfər olmaqla, ümumilikdə, 98 nəfərin daşınmaz əmlakına dəymiş zərərlərə görə sığorta ödənişləri verilib. Bu, bir daha onu göstərir ki, öz əmlakını sığorta etdirmiş hər bir vətəndaşa istənilən sığorta hadisəsi zamanı dəymiş zərərlərə görə sığorta təminatı verilir. Qeyd edək ki, göstərilən hadisə nəticəsində müxtəlif rayonlarda vətəndaşların daşınmaz əmlakına dəymiş zərərlərin əvəzinin ödənilməsi işi davam etdirilir.

**✍ Əli CABBAROV**

## Noyabr ayı üçün əmək pensiyalarının maliyyələşdirilməsi vaxtından əvvəl başa çatdırılıb

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu 2016-cı ilin noyabr ayı üçün əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırıb. Bunun üçün tələb olunan vəsait fondun xəzinə hesabından yerli orqanların xəzinə hesablarına köçürülüb. Yerlərdə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar da nəzərə alınaraq əmək pensiyaçılarının, həmçinin məcburi dövlət sosial sığorta ödəmələri almaq hüququ olan sığortaolunanların plastik bankomat kart hesablarına və ya poçt ünvanlarına vəsait köçürülüb.

Məqsədyönlü tədbirlərin nəticəsi kimi respublikamızda əmək pensiyalarının orta aylıq məbləği 2016-cı ilin əvvəli ilə müqayisədə 6,9 faiz artaraq 187,19 manata, o cümlədən yaşa görə əmək pensiyalarının orta aylıq məbləği 209,39 manata çatdırılıb. Təyin olunmuş pensiyaların plastik kartlar vasitəsilə pensiyaçılara vaxtında çatdırılması uğurla həyata keçirilir. Hesabat ayında yeni təyin olunan əmək pensiyaçılarına və istifadə müddəti başa çatan plastik kartların yeniləri ilə əvəzlənməsi üçün müvafiq müvəkkil banklara plastik kart hazırlanması üçün sifariş verilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Muxtar respublika dayanıqlı və təhlükəsiz mavi yanacaqla təmin olunur



*2016-cı il avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə "Naxçıvanqaz" İstehsalat Birliyinin qarşısına da mühüm vəzifə və tapşırıqlar qoyulub. Həmin vəzifələrin icrası ilə bağlı istehsalat birliyində görüləcək işlərə dair tədbirlər planı hazırlanıb və plana uyğun olaraq müəssisə payız-qış mövsümünə keçidlə əlaqədar öz işini daha da gücləndirib.*

Mövsümə hazırlıqla bağlı "Naxçıvanqaz" İstehsalat Birliyi tərəfindən istehlakçılara göstərilən xidmətin keyfiyyəti, həmçinin xidmətə nəzarət daha da gücləndirilib, istehlakçıların təbii qazla fasiləsiz və təhlükəsiz təmin olunması üçün lazımi tədbirlər görülüb. Belə ki, qaz istismarı idarələrinin xidməti ərazilərində – rayon mərkəzlərində, kənd yaşayış məntəqələrində qaz xətləri və bu xətlər üzərində quraşdırılmış tənzimləyici şkaflar, siyirtmələr təftiş edilib, korroziyaya uğramış borular dəyişdirilib. Muxtar respublikanın qaz təsərrüfatı şəbəkəsi ərazilər üzrə qaz analizatorları vasitəsilə yoxlanılaraq, aşkarlanan qaz sızmaları texniki-təhlükəsizlik qaydalarına uyğun olaraq aradan qaldırılır. Bu istiqamətdə işlərin icrası davam etdirilir. Bundan əlavə, payız-qış mövsümünə uyğun olaraq qəza təmiri üçün ehtiyat bazasına aid polad və polietilen borular, çilingər alətləri, köməkçi avadanlıqlar, işçi heyətinin peşə yönümü üzrə geyim formaları da normaya uyğun bərpa olunub, həmçinin birlik üzrə maşın və mexanizmlərin, qaynaq avadanlıqlarının texniki vəziyyəti yoxlanılıb. Birliyin mütəxəssisləri tərəfindən sosial obyektlərin, idarə və təşkilatların, yaşayış binalarının qazanxanalarına texniki baxış keçirilən zaman mövcud problemlər araşdırılaraq nöqsanlar aradan qaldırılıb.

Qeyd edək ki, "Naxçıvanqaz" İstehsalat Birliyi və onun yerli idarələri qaz itkisinə səbəb olacaq nöqsanları aradan qaldırmaq məqsədilə bu sahəni tam nəzarətə götürüb. Birliyin 104 nömrəli qaynar xətti fəaliyyət göstərir. Gün ərzində həmin qaynar xəttə müxtəlif xarakterli çağırışlar daxil olur. Çağırışlar daxil olan anda birliyin qəza-dispetçer xidmətinin əməkdaşları hadisə yerinə gedir, bütün işlər təlimata uyğun yerinə yetirilərək təhlükəsiz və keyfiyyətli təbii qazın nəqli bərpa olunur. "Naxçıvanqaz" İstehsalat Birliyinin fəaliyyəti dövründə, yəni 2005-ci ilin payızından 1 noyabr 2016-cı il tarixədək aparılmış məqsədyönlü işlərin nəticəsi kimi, ümumilikdə, muxtar respublika üzrə təbii qazdan 84 min 873 əhali abonentinin, 2 min 23 qeyri-əhali abonentinin istifadə etməsi təmin olunub.

Qeyd edək ki, muxtar respublikanın qaz təsərrüfatı infrastrukturunun təkmilləşdirilməsi istiqaməti üzrə qaz şəbəkəsinin müəyyən hissələrinin yenidən qurulması, istehlakçıların qaz təchizatı təminatının daha da yaxşılaşdırılması, yaşayış sahələrində yeni fərdi evlərin və sosial inzibati obyektlərin qazlaşdırılması, təbii qazdan səmərəli istifadə edilməsi, təbii qaz istehlakçılarına nümunəvi xidmətin göstərilməsi "Naxçıvanqaz" İstehsalat Birliyinin və birliyə tabe strukturların başlıca vəzifələrindəndir. Həyata keçirilən tədbirlər payız-qış mövsümündə əhalinin dayanıqlı və təhlükəsiz mavi yanacaqla təmin olunmasına imkan verir.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***

# “Şərq qapısı” qəzeti:
## *doğma Naxçıvanımızın canlı salnaməsi*

***Azərbaycanın ən qocaman mətbu orqanlarından olan “Şərq qapısı” qəzetinin 95 yaşı tamam oldu. “Şərq qapısı” qəzeti müxtəlif dövrlərdə mövcud olan ideoloji, iqtisadi çətinliklərə, bəzi hallarda yaradılan süni maneələrə baxmayaraq, fəaliyyətini dayandırmamış, ötən 95 ildə muxtar respublikamızda baş vermiş siyasi, iqtisadi, sosial və mədəni hadisələrin davamlı, əhatəli salnaməsi kimi əhəmiyyətli mənbəyə çevrilmişdir. Qəzet bir neçə nəsil üçün məktəb olmuş, Naxçıvanda jurnalist kadrların yetişməsində böyük rol oynamışdır. “Şərq qapısı”nın 95 illik inkişaf yolu muxtar respublikada ziyalılığın təkmilləşmə, dirçəliş və yüksəliş yoludur. Belə ki, “Şərq qapısı”nın yaradıcılıq məktəbində yetişən ziyalılar sonralar Azərbaycan miqyasında, hətta daha geniş dairədə tanınıb məşhurlaşmış, elmi-ədəbi nüfuz qazanmışlar.***






Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Moskvadan Naxçıvana qayıtdıqdan sonra “Şərq qapısı” qəzetinə verdiyi müsahibədə demişdir: ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb”.***

Naxçıvanda qəzet çıxarmaq ideyası hələ XIX əsrin 90-cı illərində irəli sürülmüşdür. O vaxt maarifpərvər ziyalı Məhəmməd Tağı Sidqinin yenicə açdığı “Məktəbi-tərbiyə” adlı təhsil ocağı xalqın savadlanması, təhsil alması yolunda fəaliyyətə başlamışdı. 1894-cü ildə ziyalılar qəzet nəşr etdirməkdən ötrü Peterburqa, çar üsuli-idarəsinə ərizə və məktublarla müraciət etsələr də, müraciətlərinə cavab verilməmişdir. Sonrakı illərdə də bu məsələ dəfələrlə gündəliyə gətirilmiş, ancaq dövrün mütərəqqi ziyalıları öz istəklərinə nail ola bilməmişlər.

1921-ci ilin noyabrında “Cavanlar həyatı” qəzetinin nəşrə başlaması ilə Naxçıvanda qəzetçiliyin təməli qoyulmuşdur. Vərəqə kimi çap olunan “Cavanlar həyatı” qəzeti cəmi iki aya yaxın müddət ərzində fəaliyyət göstərmişdir. 1921-ci ilin dekabr ayından etibarən Naxçıvanda “Füqəra səsi” adlı yeni bir qəzet nəşr olunmuşdur. Mətbuat tarixçiləri “Füqəra səsi” qəzetini “Cavanlar həyatı”nın davamı olan mətbuat orqanı hesab edirlər.

1922-ci ilin aprel ayından isə “Şərq qapısı” qəzeti nəşr olunmağa başlamışdır. “Şərq qapısı” 1930-cu ilədək ərəb, 1930-40-cı illərdə latın, 1940-cı ildən 2001-ci ilin iyununadək kiril əlifbası ilə çap olunmuşdur. Həmin dövrdən indiyədək latın qrafikalı əlifba ilə nəşr edilir.

“Şərq qapısı” qəzeti 95 illik tarixi ərzində böyük ədiblər, tənqidçilər, jurnalistlər nəsli yetişdirmişdir. Qəzetə keçən əsrin iyirminci-otuzuncu illərində Həmid Mahmudov və Əhməd Haşımov, Həsən Əlizadə, Əvəz Sadıq, Abbas Gülməmmədov, Hüseyn Mahmudov, Şirəli Şirəliyev, Ə.Hacızadə, Xəlil Əminov, Musa İsmayılov redaktorluq etmişlər. Azərbaycanın Xalq yazıçısı Əli Vəliyev 1933-1935-ci illərdə “Şərq qapısı”nın redaktoru vəzifəsində çalışmış və qəzetin ictimai təsir imkanlarını, vətəndaşlıq missiyasını artıran ciddi və kəsərli yazılar çap etmişdir.

“Şərq qapısı” Böyük Vətən müharibəsi dövründə yazıçı-publisist Məhəmmədəli Tarverdiyevin baş redaktorluğu (1941-1945) ilə müharibə illərinin arxa və ön cəbhədəki ritmini əks etdirmiş, qəzetdə vətənpərvərlik ruhunda yazılara geniş yer verilmişdir. Müharibə dövründə qəzet cəbhə ilə xalq arasında körpü yaradan mətbuat orqanı kimi regionda hər evin qapısını açmış, döyüş səngərlərinə belə, gedib çata bilmişdir. Müharibədən sonrakı dövrlərdə “Şərq qapısı” qəzeti tarixi yolunu davam etdirərək Azərbaycanda gedən proseslərin zəminində Naxçıvan hadisələrini əks etdirmişdir. Sonrakı dövrlərdə isə qəzetə Manaf Xudiyev (1953-1956), Fərman Tağıyev (1956-1960), Məmməd Bektaşi (1961-1962) və Hüseyn İbrahimov (1962-1965) baş redaktorluq etmişlər. Bu illərdə qəzetdə yeniləşmə hadisələrinə, ictimai meyillərin inkişafına, ədəbiyyat və incəsənət məsələlərinə, mədəniyyət tədbirlərinin işıqlandırılmasına da ciddi diqqət yetirilmişdir.

“Şərq qapısı” qəzeti ötən əsrin 70-ci illərinədək yalnız ziyalıların gücü ilə, çətin şəraitdə fəaliyyətini davam etdirmişsə, ulu öndərimiz Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsindən sonra ədəbi və mədəni həyatda baş verən əlamətdar hadisələr, mətbuata göstərilən qayğı “Şərq qapısı” qəzetindən də yan keçməmiş, qəzet 1970-ci ildən sonra yeni mərhələyə qədəm qoymuşdur. Ötən əsrin 70-80-ci illərində “Şərq qapısı” qəzetinin gündəlik və böyük formatda nəşri təmin edilmişdir. Qəzetin 50 illik yubileyində “Şərəf nişanı” ordeni ilə təltif olunması həmin dövrdə Azərbaycana rəhbərlik edən ümummilli liderimiz Heydər Əliyevin mətbuata və mətbuat işçilərinə böyük qayğısının nəticəsi idi.

Həmin dövrdə qəzet tez-tez xalqımızın dil, ədəbiyyat, mədəniyyət və tarixinə həsr olunan və Azərbaycançılıq ideologiyasına xidmət edən yazılarla çıxış etmişdir. Bu baxımdan 1987-ci ilin sonlarında xalqımızın ən qədim tarixi abidələrindən biri olan “Gəmiqaya” abidəsi haqqında dərc olunan “Xalqımızın mənlik heykəli” adlı yazı diqqəti cəlb edir. Həmin yazı barədə keçmiş Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu səviyyəsində kəskin iradlar bildirilmiş, qəzetə millətçilik damğası vurulmuşdur. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda da bu məsələ ciddi müzakirə olunmuş, qəzetin redaktoru və redaktor müavini cəzalandırılmışlar. Buna səbəb isə həmin yazıda Nuh Peyğəmbərlə bağlı toponimlərin bir çoxunun Naxçıvanda mövcudluğu, əcdadlarımızın bəşəriyyətin ilk sakinlərindən biri olması barədə qocaman alim, filologiya elmləri namizədi Əbülfəz Hüseyninin düşüncələrinə qarşı çıxan erməni millətçilərinin haray-həşir salmaları olmuşdur.

XX əsrin 90-cı illərinin əvvəllərində “Şərq qapısı” qəzeti müstəqilliyimizin əldə olunmasına və dövlətçiliyimizin möhkəmləndirilməsinə öz layiqli töhfələrini vermişdir. Qəzet həmin dövrdə muxtar respublikamızda fəaliyyət göstərən ümummilli liderimiz Heydər Əliyevin müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi yolunda həyata keçirdiyi tədbirlərin fəal təbliğatçısı olmuşdur. “Şərq qapısı” 1990-1993-cü illərdə ulu öndərimiz Heydər Əliyevin muxtar respublikanın xilas olunması istiqamətində həyata keçirdiyi tədbirləri, qəbul etdiyi qərarları, imzaladığı fərman və sərəncamları, apardığı beynəlxalq səviyyəli danışıqları dolğun əks etdirmişdir. Bu dövrdə ulu öndərimiz Heydər Əliyev qəzetin fəaliyyəti ilə yaxından maraqlanmış, çətin şəraitdə belə, onun nəşr olunmasını təmin etmişdir.

Son 21 ildə muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Mətbuata göstərilən diqqət və qayğıdan “Şərq qapısı” qəzetinə də xeyli pay düşmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” 2000-ci il 29 mart tarixli Sərəncamından sonra qəzetin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Milli mətbuatımızın 135 illik yubileyində – 2010-cu il iyulun 22-də “Şərq qapısı” qəzeti redaksiyası və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksi istifadəyə verilmişdir. Yeni kompleksin istifadəyə verilməsindən sonra qəzetin rəngli nəşrinə başlanılmışdır. Burada əməkdaşlar üçün müasir iş şəraiti yaradılmışdır.

“Şərq qapısı” qəzetinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlərlə yanaşı, redaksiya işçilərinin sosial müdafiəsinin gücləndirilməsi də daim diqqət mərkəzində saxlanılmışdır. Belə ki, ötən dövr ərzində redaksiya işçilərinin əməkhaqları dəfələrlə artırılmış, onlar fəxri adlarla təltif olunmuşlar. Bu gün “Şərq qapısı” qəzeti redaksiyasında yaxşı qəzet çıxarmaq üçün ən müasir iş şəraiti yaradılmışdır. Redaksiyada çalışanların əksəriyyəti gənclərdir. Bu da muxtar respublikamızda mətbuatla yanaşı, gənclərə göstərilən qayğının parlaq təcəssümüdür.

Qəzetə göstərilən böyük diqqət və qayğının nəticəsidir ki, onun yubileyləri həmişə yüksək səviyyədə qeyd olunmuşdur. 1996-cı ildə Ali Məclis Sədrinin Sərəncamı ilə qəzetin 75 illik yubileyi dövlət səviyyəsində qeyd edilmişdir. Ulu öndər Heydər Əliyevin bu münasibətlə “Şərq qapısı” qəzetinin kollektivinə ünvanladığı təbrik məktubunda deyilir: ***“75 illik şərəfli yaradıcılıq yolu keçmiş “Şərq qapısı” qəzeti öz səhifələrində muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatını, əhalisinin qayğı, istək və arzularını dolğun əks etdirməklə oxucularının rəğbətini qazanmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra “Şərq qapısı” qəzetinin kollektivi öz fəaliyyətində əsaslı dönüş yaratmış, ölkəmizdə gedən yeni cəmiyyət quruculuğu və demokratik dəyişikliklərin həyata keçirilməsi prosesinə fəal qoşulmuşdur. Əminəm ki, “Şərq qapısı” qəzeti Azərbaycanın azad və demokratik mətbuat sistemində layiqli yer tutaraq dövlətçiliyimizin möhkəmləndirilməsi yolunda bütün qüvvələrini səfərbər etmək, hər bir oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaq üçün var gücünü sərf edəcəkdir”.***

2001-ci ildə qəzetin 80, 2006-cı ildə 85, 2011-ci ildə isə 90 illik yubileylərinin qeyd olunması, Ali Məclis Sədrinin kollektivlə görüşməsi bu mətbu orqana göstərilən davamlı dövlət qayğısının ifadəsidir. “Şərq qapısı”nın 90 illik yubileyində qəzet Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif edilmiş, bir əməkdaş mənzillə təmin olunmuşdur.

“Şərq qapısı” qəzetinin 94-cü və 95-ci ildönümləri münasibətilə Amerika Birləşmiş Ştatlarının Milvauki vilayətində hökumət bəyannaməsi qəbul edilmişdir.

“Şərq qapısı” qəzeti öz tarixi ənənələrinə söykənərək bu gün də qoca Şərqin qapısında həmişəcavan mətbuat orqanı kimi fəaliyyətini davam etdirir. Heç şübhəsiz ki, bu fəaliyyətin bir hərəkətverici qüvvəsi var – o da göstərilən dövlət qayğısıdır. Bu fəaliyyətin bir istiqaməti, dövlətə, Vətənə, xalqa xidmət edən bir mükəmməl ideoloji xətti var – o da muxtar respublika rəhbərinin verdiyi tapşırıq və tövsiyələr, göstərdiyi yoldur.

2011-ci ildə “Şərq qapısı” qəzetinin 90 illiyi münasibətilə kollektivlə görüşündə Ali Məclisin Sədri demişdir: ***“Qəzet Naxçıvanda maarif və mədəniyyətin, elmin inkişafına mühüm töhfələr vermiş, peşəkar jurnalist kadrların hazırlanmasında baza rolunu oynamış, ictimai fikrə öz təsirini göstərmişdir. Bu gün də cəmiyyətin informasiyaya olan ehtiyacının dolğun ödənilməsində, muxtar respublikamızın sosial-iqtisadi və ictimai-mədəni həyatının işıqlandırılmasında, milli-mənəvi dəyərlərin qorunmasında, günümüzün quruculuq və inkişaf salnaməsinin yazılıb gələcək nəsillərə çatdırılmasında “Şərq qapısı” qəzetinin üzərinə mühüm vəzifələr düşür. “Şərq qapısı” oxucuların, cəmiyyətin maraqlarına xidmət göstərən materialların verilməsini davam etdirməli, əhalinin maarifləndirilməsi və məlumatlandırılması işində fəallıq göstərməlidir. Qəzet çalışıb ona nail olmalıdır ki, hər bir vətəndaşımızda, gənclərimizdə vətənpərvərlik, yurd sevgisi hissləri və milli duyğular güclənsin, milli dəyərlər, adət-ənənələr qorunsun, xalq yaradıcılığının, milli mədəniyyətin təbliğinə diqqət artırılsın. Muxtar respublikanın bütün yaşayış məntəqələrinin, eyni zamanda ucqar dağ və sərhəd kəndlərinin həyatı da qəzet səhifələrində obyektiv əksini tapmalı, zəngin mədəniyyətimiz və qədim tariximizlə bağlı materiallar hazırlanmalıdır”.***

Ali Məclis Sədrinin tapşırıq və tövsiyələrinin icrası istiqamətində səylər daha da artırılmışdır. “Şərq qapısı” qəzeti maarifçilik işini davam etdirir, oxucularına təqdim etdiyi informasiyalarda obyektivliyə söykənir, tarixi keçmişimizlə yanaşı, bu gün gedən proseslərə də diqqəti artırır, müasir dövrün tarixini yaratmağa çalışır. Qəzet tarixin ən müxtəlif dönəmlərində Azərbaycan dövlətinin, blokada şəraitində yaşayan Naxçıvanın çətin və şərəfli günlərinin yazılı salnaməçisi olduğu kimi, müasir Naxçıvanın bu gününün, muxtar respublikanın gələcəyinə hesablanmış nəhəng tədbirlərin, layihələrin həm bu günün oxucusuna, həm də gələcək nəsillərə çatdırılması üçün əlindən gələni əsirgəmir.

2012-ci ildən fəaliyyət göstərən internet saytı vasitəsilə “Şərq qapısı” bütün dünyada yaşayan azərbaycanlılar tərəfindən oxunur. Ay ərzində qəzetin saytına 250 mindən çox baxış sayının qeydə alınması “Şərq qapısı” qəzetinə, bütövlükdə isə Naxçıvan Muxtar Respublikasına günü-gündən artan marağın nəticəsidir.

*95 illik şərəfli bir yol keçən “Şərq qapısı” qəzeti sağlam məfkurəli ideyası ilə doğma Naxçıvanımızın real salnaməsinə çevrilmişdir. Bu mənada, “Şərq qapısı” qəzetini muxtar respublikamızın canlı tarixini yaşadan mühüm bir vasitə adlandıranlar yanılmırlar. Ötən illərin qəzet səhifələrinə baxanda, həqiqətən də, bir daha aydın olur ki, “Şərq qapısı”, sözün gerçək mənasında, canlı tarix və canlı salnamədir.*

**Tural SƏFƏROV**
**“Şərq qapısı” qəzetinin baş redaktoru**



# Naxçıvanlı bir neçə müəllifin bu günə qədər tədqiq olunmamış əlyazmaları aşkar edilib

AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunda Naxçıvan Muxtar Respublikasına dair müxtəlif tarixi qaynaqları əhatə edən yeni əlyazma və qədim kitablar toplanılıb. Bunların içərisində fondun balansına fars dilində daxil edilən Rizaqulu xan Hidayətin 368 səhifəni əhatə edən “Riyazül Arifin” (hicri-qəməri 1305-ci il, Tehran), Müştəri Müstehidzadə Qarabağinin 278 səhifəlik ornamentli “Riyazül aşiqin” (hicri-şəmsi 1328-ci il, İstanbul), 248 səhifəlik Mir Möhsün Nəvvabın “Təzkireyi-Nəvvab” (1913-cü il, Bakı) adlı təzkirələrinin ilkin araşdırmaları aparılıb.

Tədqiqata cəlb edilən bu 3 təzkirədə (biblioqrafiyada) beş naxçıvanlı müəllifin həyat və yaradıcılığı haqqında bu günə qədər tədqiq edilməyən məlumatlar əldə olunub.

Fondun Əlyazmaların toplanması şöbəsinin müdiri Fəxrəddin Eylazov təzkirələrin araşdırılmasını regionun orta əsrlər dövrü üzrə tədqiqinin dərinləşməsində istifadə ediləcək yeni mənbə kimi qiymətləndirir. Tədqiqatçının sözlərinə görə, bu mənbələr orta əsrlər dövrü elmi mühitini yaxından izləmək üçün əsaslı zəmin yaratması ilə yanaşı, o dövrdə regionun ədəbi dili, kitabçılıq sənəti, katiblik, təzkirəçilik və digər sahələrin öyrənilməsində əsaslı qaynaq kimi də istifadə oluna bilər.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Oktyabr ayında tibbi xidmətin əhatə dairəsi genişlənib

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini oktyabr ayında da davam etdirib, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması həmişəki kimi diqqət mərkəzində saxlanılıb.***

Muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işləri çərçivəsində ötən ay Culfa rayonunun Gülüstan kəndində feldşer-mama məntəqəsi əhalinin istifadəsinə verilib.

Azərbaycan Respublikası QİÇS-lə Mübarizə Mərkəzi və Qlobal Fond tərəfindən Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə mübarizə şöbəsinə HİV, hepatit B, C və sifilis testləri, reaktiv və tibbi materiallar, 9 nəfər xəstədə ARV terapiya aparmaq üçün dərman preparatları, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən idarə olunan yoluxucu xəstəliklərin immunoprofilaktikası məqsədilə peyvənd materialları, öz-özünü məhv edən şpris və işlənmiş materialları yığmaq üçün konteyner gətirilib. İlkin vərəmin təyini məqsədilə noyabr ayında tuberkulin sınağı keçirmək üçün 60 min doza tuberkulin, öz-özünü məhv edən şpris və işlənmiş materialları yığmaq üçün konteyner alınıb.

Ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinə və cərrahi əməliyyatlarının təşkili davam etdirilib. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanasının Ürək və damar xəstəlikləri şöbəsinin 3 nəfərdən ibarət heyəti Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kardiocərrahları ilə birgə 9 nəfərdə açıq ürək əməliyyatı, 27 nəfərdə müayinələr aparıb.

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən mədəniyyət işçiləri arasında süd vəzinin profilaktik müayinəsi davam etdirilib, 145 nəfər qadında süd vəzinin müayinəsi aparılıb, 7 nəfərdə patologiya aşkar olunaraq Onkoloji Mərkəzə dəvət olunub.

Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində 28 min 602 şagirdin pediatr, oftalmoloq, stomatoloq, ortoped tərəfindən kütləvi müayinəsi aparılıb, 2486 nəfər dispanser qeydiyyata alınıb.

Aşura günü ilə əlaqədar Naxçıvan şəhərində 3 məsciddə, Şərur rayonunda 1 məsciddə, Ordubad rayonunda 1 məsciddə, Babək rayonunda 4 məsciddə, Culfa rayonunda 2 məsciddə, Şahbuz rayonunda 1 məsciddə, Kəngərli rayonunda 3 məsciddə, Sədərək rayonunda 1 məsciddə qanvermə aksiyası keçirilib, 518 nəfərdən 207,2 litr qan tədarük edilib.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə yanaşı, Naxçıvan Muxtar Respublika Xəstəxanası, Diaqnostika-Müalicə Mərkəzi, Mərkəzi Uşaq Xəstəxanası, dispanserlər, rayon mərkəzi xəstəxanaları nəzdində həkim briqadalarının müasir tibbi avadanlıq, cihaz və aparatlar, laboratoriya ilə təchiz olunaraq yerlərə gedişi qrafik əsasında tənzimlənib, müayinələrin kütləviliyinə nail olunub.

Muxtar respublika ərazisində yoluxucu xəstəliklərə görə epidemioloji vəziyyət sabit olub, xüsusi təhlükəli infeksiyalar qeydə alınmayıb. Qızılca, məxmərək, anadangəlmə məxmərək sindromu üzərində epidemioloji nəzarəti gücləndirmək məqsədilə həkim- epidemioloqların, pediatrların, infeksionistlərin, ginekoloqların və tələbələrin iştirakı ilə Doğum Mərkəzində seminar keçirilib.

Rayon və kənd tibb müəssisələrinin fəaliyyətinə nəzarət məqsədilə oktyabr ayında Şərur Rayon Mərkəzi Xəstəxanasına, Aralıq Kənd Sahə Xəstəxanasına, Siyaqut, Qarxun, Sərxanlı kənd həkim ambulatoriyalarına, Yuxarı Aralıq, Muğancıq-Müslüm feldşer-mama məntəqələrinə gedilib, mövcud nöqsanların yerindəcə həll olunması üçün tapşırıqlar verilib.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi oktyabr ayı ərzində 21 nəfəri Bakı şəhər Şağan qəsəbəsində yerləşən Əlillərin Müalicə Pansionatına, 54 nəfəri Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 10 nəfəri müxtəlif xəstəxanalara müalicəyə göndərib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Övladlarımıza qəhrəmanlarımızın adlarını verək

***17 ildir, səngərdə döyüşən bir hərbçinin həyat yoldaşı kimi bu illərdə gördüklərim mənim dünyaya tam fərqli gözlə baxmağıma səbəb olub. 20 faiz torpağı işğal altında olan dövlətin "Hər evi səngər, hər vətəndaş əsgər olmalıdır" fikriylə, düşüncəsiylə yaşayıb, övladlarımı da vətənpərvər bir fərd kimi böyütməyə çalışıram. Bu müharibədə yüzlərlə can qurban edib bu xalq. Şəhidlərimiz öz qürurlu ölümüylə torpaqlarımızı, vətənimizi qoruyub gələcək nəslin azad böyüməsinə, müstəqil olmasına təminat veriblər: bayrağımız qoy həmişə dalğalansın, torpaqlarımız işğaldan azad olunsun deyə.***

Bəs biz nə etmişik şəhidlərimiz üçün? Ötən dövrdə neçə şəhid verib bu vətən və bu illərdə dünyaya neçə körpə göz açıb? İgid eloğullarımızın hansısa biri şəhid olanda hansısa doğum evində bir körpənin dünyaya göz açması da labüddür. Körpələrimizin dünyaya gəlişi ilə bir ailə sevinib, bir ananın üzü gülüb. Başqa bir evin övladı cəbhənin hər hansısa bir hissəsindən düşmənin hücumunu dəf edərkən şəhidlik zirvəsinə yüksəlib. O gecə göz açan körpəyə dünyadan köçən igidin adını verib, onun adını yaşatsaq, şəhidimizin o qəmli anasının da ürəyinə sakitlik gətirmiş olarıq.

Təkcə son beş ildə 20436 körpəyə Yusif, 19925 körpəyə Əli, 8922 körpəyə Məhəmməd və 8497 körpəyə Ömər adı verilib.

Bu ilin iyun ayında körpələrə verilən adlar siyahısında Murad adı üstünlük təşkil edir. Amma gəlin görək uşağın valideynlərindən "bu adı nə səbəbə oğlunuza vermisiniz" soruşsaq, necə cavab alarıq? Ya babasının adıdır, ya da ki hansısa teleseriallardakı qəhrəmanın. Ən yaxın keçmişə, bu ilin aprel döyüşlərinə qayıdaq. 4 günlük müharibədə ordumuz gücümüzü təkcə düşmənə yox, bütün dünyaya nümayiş etdirdi. İtkisiz döyüş olmur. Cəsur kəşfiyyatçı Murad Kazımov da onların sırasında idi. Murad adı verilən yüz uşaqdan heç olmasa birinin daşıdığı adın bu cəsur kəşfiyyatçının adı ilə bağlı olduğunu bilməsi ona nə qədər qürur verər.

Görün nə qədər Murad, Fərid, Rauf, Qabil, Malik, Elnur, Məhərrəmlər itirmişik bu müharibə illərində. Amma biz hələ də övladlarımıza teleseriallarda gördüyümüz qəhrəmanların, "Titanik" gəmisi batanda sevdiyi qadını xilas edən, qəhrəmanlıq edən aktyorun adını veririk. Onlara tanımadığımız insanların adlarını deyil, cəbhələrdə torpaq uğrunda canını qurban verən oğullarımızın adlarını versək, övladımız daha vətənpərvər ruhda böyüyər. Bu gün daşıdığı adı ondan əvvəl daşıyan insanın necə bir cəsur döyüşçü olduğunu, vətəni üçün canından keçdiyini bilib, fəxr hissi ilə daşıyar adını. Gəlin yeni doğulan körpələrimizə vətən uğrunda canından keçən şəhidlərin adını verək. Bir idisə, min-min olub yaşasın Azərbaycan igidləri. Qoy düşmən qorxsun Mübarizin, Fəridin, Muradın adıyla böyüyən oğullardan. Oğlunu itirmiş şəhid anası ağlamasın. Oğlunun adını daşıyan balaların o ada layiq igid olduğunu görsün.

Ta qədimdən "Kitabi-Dədə Qorqud" dastanında tayfada dünyaya göz açan körpəyə böyüyüb boya-başa çatanda etdiyi igidliyə görə ad verirdilər. Adıyla böyüsün deyirdilər. Adıyla böyüsün balalarımız. Gələcəkdə kim olduqlarını, haradan gəlib haraya getdiklərini bilsinlər. Bu torpağın bütövlüyü uğrunda hər dəfə bayrağımızı dalğalandıran görəndə, bu bayraq enməsin deyə canından keçən igidin adını daşıdığını bilib qürur duysunlar.

Analar öz övladlarını Mübariz, Malik, Elnur, Murad deyib çağıranda ruhu şad olsun şəhidlərimizin.

**Ramiyə ƏKBƏROVA**

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Atıcılıq Federasiyasının birgə təşkil etdiyi Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü münasibətilə keçirilən peyntbol üzrə Naxçıvan Muxtar Respublika birinciliyinə yekun vurulub.***

## Peyntbol birinciliyi keçirilib



Yeniyetmə və gənclərə vətənpərvərlik hisslərinin aşılanması və peyntbol idman növünün təbliğ edilməsi məqsədilə keçirilən birincilikdə ali və orta ixtisas təhsili müəssisələrinin oğlanlardan ibarət komandaları mübarizə aparıb.

Yarış Naxçıvan Muxtar Respublikası Atıcılıq Mərkəzində keçirilib. Birincilikdə Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Tibb Kolleci, Naxçıvan Dövlət Texniki Kolleci və Naxçıvan Musiqi Kollecinin komandaları iştirak ediblər.

Yarışın yekun nəticəsinə əsasən, final görüşündə Naxçıvan Dövlət Texniki Kollecinin komandası ilə Naxçıvan Müəllimlər İnstitutunun komandası üz-üzə gəlib. Atışları daha sərrast yerinə yetirən Texniki Kollecin tələbələri birinciliyin qalibi olublar. Üçüncü yerə isə Naxçıvan Dövlət Universitetinin komandası layiq görülüb.

Sonda qaliblərə təşkilatçıların diplomları və hədiyyələri təqdim edilib.

## "Nuh yurdu" intellektual oyununun zona birinciliyi



Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və Naxçıvan Muxtar Respublikası Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyinin təşkilatçılığı ilə "Nuh yurdu" intellektual oyununun Naxçıvan Muxtar Respublika zona birinciliyi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev və Gənclər və İdman Nazirliyi Aparatının Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev çıxış edərək intellektual oyunun keçirilməsi məqsədlərindən danışaraq bildiriblər ki, yarışda şəhər və rayon birinciliklərində qalib olmuş komandalar mübarizə aparırlar. Oyunun keçirilməsində məqsəd yeniyetmələrin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarətdir.

Birincilik iki əsas, bir final mərhələsindən ibarət olub. Finalda Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin "Nuh yurdu" komandası, Şahbuz rayon Kolanı kənd tam orta məktəbinin "Zəka" komandası, Kəngərli rayon Xok kənd tam orta məktəbinin "Möminə xatın" komandası, Culfa şəhər 3 nömrəli tam orta məktəbin "Odlar yurdu" komandası iştirak ediblər.

Yekun nəticəyə əsasən, Şahbuz rayon Kolanı kənd tam orta məktəbinin "Zəka" komandası zona birinciliyinin qalibi olub. Digər iki pillədə isə Kəngərli rayon Xok kənd tam orta məktəbinin "Möminə xatın" və Culfa şəhər 3 nömrəli tam orta məktəbin "Odlar yurdu" komandaları qərarlaşıblar.

Qaliblərə təşkilatçıların diplom, fəxri fərman və kubokları təqdim olunub.

## Komandamız respublika çempionatını ikinci pillədə başa vurub

***Xaçmaz Olimpiya-İdman Kompleksində "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə respublika çempionatının final mərhələsi keçirilib.***

Noyabr ayının 7-dən 10-na kimi davam edən birincilikdə Naxçıvan Muxtar Respublikasının komandası da iştirak edib. Beynəlxalq Poliatlon Çoxnövçülüyü Assosiasiyasının qaydalarına əsasən keçirilən yarışda 16 komanda turnikdə dartınma, qumbara atma, 100 və 2000 metr məsafələrə qaçış idman növləri üzrə mübarizə aparıb. Naxçıvanı isə bu yarışda muxtar respublikada keçirilən zona birinciliyinin qalibi, Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin komandası təmsil edib.

Uğurlu çıxış edən komandamız yekunda 779 xal toplayıb və Azərbaycan çempionatını ikinci pillədə başa vurub.

Təmsilçimiz Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kubok və diplomları ilə təltif edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

## Görmə məhdudiyyəti olan şəxslər arasında brayl yazı müsabiqəsi

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 13 noyabr – Beynəlxalq Gözdən Əlillər Günü münasibətilə görmə məhdudiyyəti olan şəxslərin iştirakı ilə növbəti tədbir təşkil edilib.***

Noyabrın 10-da Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində görmə məhdudiyyəti olan şəxslər arasında brayl yazı müsabiqəsi keçirilib. Müsabiqədə görmə məhdudiyyəti olan 7 nəfər iştirak edib. Münsiflər heyətinin rəyinə əsasən, ilk üç yerə layiq görülən müsabiqə iştirakçılarına mükafatlar, digər iştirakçılara isə həvəsləndirici hədiyyələr təqdim edilib.

Tədbirin keçirilməsində məqsəd bu kateqoriyadan olan şəxslərin bacarıq və qabiliyyətini üzə çıxarmaq, onlarda özlərinə inam hissi yaratmaqdır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Məmmədova Təhminə Azər qızının adına Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi tərəfindən verilmiş TTC-00648 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Qarabağlar kənd sakini Cabbarlı Eldar Nəriman oğlunun adına olan JN-376A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Hacızadə Həbib Elman oğlunun adına olan 8473 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 842